# Fazil Güneyin 70 illik yubileyi qeyd edildi

## Onun yazıçı, alim və jurnalist kimi fəaliyyəti təqdir edildi

Yeni mövsümün başlanılması ilə ədəbi gündəm də özünü sözün yaxşı mənasında təzələyib və ard-arda yubileylər, ədəbiyyat tədbirləri, kitab təqdimatları keçirilməyə başlayıb. Bu cür tədbirlərdən biri də oktyabr ayının 13-də Azərbaycan Yazıçılar Birliyində baş tutdu. "Natavan" klubunda keçirilən tədbirin səbəbkarı filologiya üzrə fəlsəfə doktoru, Əməkdar Jurnalist və yazıçı Fazil Güney idi. Fazil müəllimin 70 illik yubileyinə həsr olunmuş tədbirdə tanınmış şairlər, yazıçılar, ədəbiyyatşünaslar və ədəbiyyatsevərlər iştirak edirdilər. Tədbiri giriş sözü ilə AYB-nin katibi Rəşad Məcid açdı və Fazil Güneyin özünəməxsus yaradıcılığından, əsərlərinin əhatəliliyindən, eləcə də yazıçının orijinal üslubundan danışdı. F.Güneyin yaradıcı yolundan, əsərlərinin orijinal üslubundan danışan katib, Suriya, İraq və Liviyada hərbi və mülki tərcüməçi kimi fəaliyyətinə işıq salaraq, bu istiqamətdə yaradıcılığı ilə ədəbiyyatımızın təbliğində gördüyü əhəmiyyətli işləri diqqətə çatdırdı. R.Məcid yazıçının "Qara qan" kitabı ilə böyük oxucu məhəbbəti qazandığını da xüsusi vurğuladı və AYB-nin rəhbərliyi adından yubilyarı təbrik edib, ona yaradıcılıq müvəffəqiyyətləri arzuladı.



Daha sonra professor Nizaməddin Şəmsizadə çıxış edərək yazıçı haqqında fikirlərini bölüşdü. Prosessor çıxışında Fazil Güneyin müxtəlif janrlarda yazılmış əsərlərinin aparıcı leytmotivini vətənpərvərlik, mənəvi saflıq, təmiz sevgi duyğuları olduğunu dilə gətirib və onun çoxşaxəli yaradıcılığında saysız-hesabsız publisistik yazının, felyeton, pamflet və hekayələrin, elmi məqalələrin əhəmiyyətini, ədəbi və elmi məziyyətini yüksək qitmətləndirdi. Konkret əsərlər haqqında danışan N.Şəmsizadə "Ulduz sövdəsi" pamfletlər toplusunun, "Qara qan" tarixi romanının üstün bədii gücü barədə çıxışında əhatəli nitq söylədi: "Fazil Güneyin Qarabağ müharibəsindən, vətənimizin işğal olunmasından bəhs edən üç cildlik "Qara qan" tarixi romanı, ədəbiyyat tariximizdə öz layiqli yerini tutmağa layiq nümunələrdəndir. Bu üç cildlik trilogiyanı yazmaq böyük yazıçı ürəyi və cəsarəti tələb edir. Romanın iki cildi çap edilib, üçüncü cildi isə nəşrini gözləyir. F.Güneyin bir üstün yaradıcı məziyyəti də odur ki, öz əsərlərində Azərbaycan gülüş mədəniyyətini qoruya bilir və ondan yaxşı silah kimi istifadə etməyi bacarır".

Tədbir iştirakçıları çıxış zamanı yazıçının ömür yoluna da güzgü tutublar. Çıxışlar zamanı yazıçının ömür yolunun ayrı-ayrı lövhələri - 1963-cü ildə daxil olduğu Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin "Ərəb dili tərcüməçiləri" şöbəsində oxuyarkən universitet qəzetinə dəvət edilməsi, tələbəlik illərindən əvvəl doğulduğu Cəbrayıl rayonunda rayonlararası qəzetdə fəaliyyəti, həmin dövrdə mətbuatda ardıcıl çap edilən oçerkləri, kiçik hekayələri, dili öyrənmək qabiliyyətinin üstünlüyünə görə sovet dövründə dördüncü kursu Şimali Afrikada ən nüfuzlu təhsil ocağı sayılan Əlcəzair Universitetində oxumağa layiq görülməsi, oradakı 6 illik iş təcrübəsi - xatırlanıb.

Bununla başqa yazıçının müstəqilliyimizin bərpasından sonrakı dönəmdə fəaliyyəti diqqətə çatdırıldı və qeyd edildi ki, müstəqillik abı-havası onun ədəbi istiqamətini daha çox jurnalistikaya yönəldib. Onun Qarabağ gerçəkliklərini dünyada yaymaq üçün 1991-ci ilin əvvəlində yaradılan "AssA-İradə" Azərbaycan Beynəlxalq Xəbər Agentliyinin, 1997-ci ildən çıxmağa başlamış ingiliscə "AzerNews" qəzetinin təsisçisi və baş redaktoru kimi xalqın və dövlətimizin qarşısında əməyi və jurnalisti fəaliyyəti danılmazdır. Fazil Güneyin alim kimi də fəaliyyəti yaddan çıxarılmayıb. "Müasir Suriya romanı" və "Suriya qadın yazıçılarının əsərlərində qadın emansipasiyası" monoqrafiyası olduqca maraqlı elmi mənbə kimi dəyərləndirilib.

Sonda tədbir iştirakçılarına təşəkkürünü bildirən F.Güney bütün ömrünü yaradıcılığına həsr edəcəyini qeyd edərək "Qara qan"ın üçüncü cildini tamamladığını da müjdələdi və tərcüməçi kimi fəaliyyət göstərdiyi illərdən bəhs edən "Dilmanc" adlı bədii-publisistik əsər üzərində də ciddi işlədiyini qeyd etdi.

**Hüseyn**